https://doi.org/10.59849/3006-1342.2026.2.29
UOT 908

*Nərgiz Aydın qızı Rəsulova*
*Gəncə Dövlət Universitetinin dosenti,*
*tarix üzrə fəlsəfə doktoru,*
*AMEA Gəncə Bölməsi Diyarşünaslıq İnstitutu*
*Tarix şöbəsinin müdiri*
*E-mail: nararasulova@bk.ru*
*https://orcid.org/0009-0003-8622-5605*
*İlahə Arif qızı Əsədzadə*
*AMEA Gəncə Bölməsi Diyarşünaslıq İnstitutu*
*Kiçik elmi işçi*
*E-mail: ilahe.esedzade@gmail.com*
*https://orcid.org/0009-0007-1288-3719*
*Nuranə Zöhrab qızı Qənbərova*
*AMEA Gəncə Bölməsi Diyarşünaslıq İnstitutu*
*Laborant*
*E-mail: hesenova.nurane.099@gmail.com*
*https://orcid.org/0009-0008-1919-8084*

# GƏNCƏ XANLIĞININ YARANMASI VƏ QONŞU XANLIQLARLA MÜNASİBƏTİ

*Gəncə xanlığı Gəncə bəylərbəyiliyi əsasında yaranmışdır. Bu bəylərbəyilik irsi olaraq qısamüddətli fasilələrlə XVII əsrdən 1804-cü ilədək Qacarlar tayfasının Ziyadlı oymağına məxsus Ziyadoğlular nəsli tərəfindən idarə olunub. Xanlığın əsası Qacarlar tayfasının yerli nəslinin nümayəndəsi Şahverdi xan Ziyadoğlu xan tərəfindən qoyulub. Gəncə həm hərbi-siyasi, həm də iqtisadi-təsərrüfat cəhətdən mühüm əhəmiyyət kəsb edirdi; O, şərq ticarətinin aparıldığı əhəmiyyətli mərkəz idi. Tədqiqat işində Gəncə xanlığının yaranmasından Cavad xan Ziyadoğlunun hakimiyyətə gəlməsinə qədər olan dövr, xanlığın tarixində ən mühüm hadisə kimi Qarabağ xanlığının və Kartli-Kaxeti çarlığının asılılığından çıxaraq müstəqillik uğrunda mübarizəsi, həmçinin rus və qacarların hücumlarına xüsusi önəm verilir. Yarandığı zamandan bu xanlıq qonşu feodal hakimlərin hücum hədəfinə çevrilmişdi. Buna görə də qarabağlı Pənahəli xan, onun varisi İbrahimxəlil xan, həmçinin Kartli-Kaxeti hakimləri Teymuraz və II İrakli xanlıq uğrunda mübarizədə xüsusilə seçilirdilər. Gəncə xanları düşmənə qarşı müqavimət göstərərək gah bu, gah da digər, daha güclü düşmən arasında hiylə işlətmək məcburiyyətində idilər.*

*Açar sözlər.* Gəncə xanlığı, Ziyadoğlular, Cavadxan, Kartli Kaxetia, II İrakli, Qarabağ xanlığı, İbrahimxəlil xan, Qubalı Fətəli xan

## *Giriş*

XVIII əsrin ikinci yarısında Azərbaycanda əhəmiyyətli siyasi və iqtisadi mərkəz olaraq şöhrət tapmış şəhərlərdən biri də Gəncə idi. Gəncə sadəcə Azərbaycanda yox, həmçinin Cənubi Qafqazda gözəl və böyük şəhərlər siyahısında idi. Bağlı-bağatlı və füsunkar küçələri olan Gəncə şəhəri təbiəti ilə də seçilirdi belə ki, şəhər sanki yaşıllıqlara bürünmüşdü. Səyyah Avril Filip Gəncəyə gəlişini bu cümlə ilə təsvir edir: "Biz oraya (Gəncəyə*)* baharın ortalarında gəldik, saysız hesabsız çiçəkli və yarpaqlı ağaclarla örtülən evləri yaşıllıq daha da gözəlləşdirirdi, mən belə bir valehedici mənzərə görməmişəm". Gəncə şəhərinin yerləşdiyi ərazi dəmir, mis, qurğuşun, duz və s. faydalı qazıntılarla da bol idi. Bu təbii zənginliyə görə

də Gəncədə sənətkarlığın inkişafı üçün əlverişli zəmin yaranmışdı. Şəhərdə hazırlanan sənətkarlıq məmulatları ancaq daxili bazarda satılmır, xaricə də ixrac edilirdi. Nadir şahın qətlə yetirilməsindən sonra (1747) Gəncə-Qarabağ bəylərbəyiliyinin ərazisində iki xanlığın - Gəncə və Qarabağ xanlıqlarının yaranması göstərilir. Gəncə xanlığının əsası Şahverdi xan Ziyadoğlu tərəfindən qoyulmuşdu. Gəncə eyni adlı xanlığın paytaxtı olandan sonra mütəmadi olaraq Kartli-Kaxeti çarlığı və Qarabağ xanlığı tərəfindən hədəf alınmış, hətta qısa zamanda həmin feodal dövlətləri tərəfindən zəbt olunmuşdu [1, s. 110].

Şahverdi xanın vəfatından sonra onun oğlu - II İraklinin yardım göstərdiyi Məhəmmədhəsən xan (1760-1780) hakimiyyətə gəlir ancaq iyirmiillik hökmranlıqdan sonra o, 1778-ci ildə saray çəkişmələrinin qurbanı olur. Xanlığın hakimi Məhəmmədhəsən xanı ona sui-qəsd edən qardaşı Məhəmməd xan əvəz etdi. Onun hakim olduğu dövrdə Gəncə xanlığı xeyli zəiflədi. Vəziyyətin belə bir hal almasından istifadə edən II İrakli Gəncəni zəbt etmək üçün addımlar atır, ancaq o, tələsməyib bu işdə Azərbaycanda əhəmiyyətli nüfuza sahib olan və tez-tez ittifaqda olduğu qarabağlı İbrahimxəlil xandan yardım almağa qərar verir. Zəngin Gəncə şəhərində əvvəldən gözü olan İbrahimxəlil xan etiraz etmədən II İraklinin təklifini qəbul etdi. Nəhayət, 1780-ci ildə II İrakli və İbrahim xanın qoşunları Gəncə qalasına hücum edərək onu mühasirəyə aldılar. Ciddi müqavimət göstərə bilməyəcəyini görən Gəncə qarnizonu təslim oldu. Qaliblər Gəncə xanlığını bərabər idarə etməyi planlaşdırıb, seçilən nümayəndələrini şəhərdə yerləşdirdilər. Həmin hadisədən sonra altı il ərzində Gəncə xanlığı İbrahim xanın təyin etdiyi Həzrətqulu bəy və II İraklinin nümayəndəsi Keyxosrov tərəfindən idarə olundu. Bu vəziyyət 1785-ci ilədək davam etdi [3, s. 20].

1780-ci ildən Gəncəni öz hakimiyyətinə keçirmiş İbrahimxəlil xanla Kartli Kaxetiya çarı II İrakli arasında müttəfiqlik və dostluq münasibətləri mövcud idi. Onlar Gəncə xanlığının gəlirlərini öz aralarında bölürdülər. Bu hal 1783-cü il Georgiyevsk müqaviləsinin imzlanmasına qədər davam etmiş sonra II İrakli Rusiyaya arxalanaraq İbrahimxəlil xanı Gəncədən sıxışdırmağa çalışmışdı. Həmin məqsədlə II İrakli 1784-cü ilin payızında Gəncə üzərinə hücum etdi. Hərbi səfərində ona polkovnik Burnaşevin başçılığı ilə rus qoşunları kömək edirdi. Tez zamanda İbrahimxəlil xanla II Irakli arasında Gəncə üstündə ziddiyyət baş verdi. Gəncə xanlığına ələ keçirmək məsələsi uzun zaman müttəfiqlik münasibətlərində olmuş II İrakli ilə İbrahimxəlil xanı düşmənə çevirmişdi. Hər iki hakim feodal xanlığa təmamilə sahib olmaq üçün tədbirlər görməyə başladı. Mübarizə yerli feodalların yardımından istifadə etmiş İbrahimxəlil xanın qələbəsi ilə sonlandı. II İraklinin nümayəndəsi və qoşunları Gəncəni tərk etməyə məcbur oldular. Buna baxmayaraq qısa zaman sonra İbrahimxəlil xanın nümayəndəsi də gəncəlilərin üsyanı nəticəsində şəhərdən qovularaq buranı tərk etməli oldu. Bununla da, 1785-ci ildə Gəncədə hakimiyyəti üsyan başçılarından biri olan Rəhim bəy (1785-1786) ələ keçirdi [4, s.72].

1786-cı ildə Gəncədə çevriliş nəticəsində hakimiyyətə Rəhim bəyin qardaşı Cavadxan keçdi. Cavad xan hakimiyyətə gəlmək müqabilində Qarabağ xanının himayəsini qəbul etməli və Gürcüstan padşahına illik beş min manat bac ödəməli idi. Bununla razılaşan Cavadxan Gəncə xanı məqamına yetişdi. Buna baxmayaraq Qarabağ və Kartli Kaxeti hakimləri təkrardan xanlığın işlərinə müdaxilə etməyə başladılar. Fətəli xanla əldə edilmiş ittifaq Kartli-Kaxetiya çarlığının Gəncə üzərində hakimiyyətinin bərpa olunması üçün əlverişli şərait yarada bilərdi. Ancaq II İraklinin Gəncəni ələ keçirmək cəhdi baş tutmadı. II İraklinin gizli tədbirlərindən xəbərdar olan İbrahimxəlil xan yerli feodallardan Hacı bəyin başçılığı və gəncəlilərin yardımı ilə Kartli-Kaxetiya qoşunlarının Gəncədən çıxarılmasına nail oldu. Şimal-Şərqi Azərbaycan torpaqlarını özünə tabe etmiş Qubalı Fətəli xan öz nüfuzunu Gəncə xanlığına da "tanıtdırmaq" səbəbi ilə bu yürüşdə iştirak etmişdi [1, s. 376]. Ehtimal ki, həmin dövrdə Fətəli xan çar Rusiyasının Azərbaycanı ələ keçirmək və orada hakimiyyət yaratmaq planlarından xəbərdar idi və diplomatik tədbirlər nəticəsində bu planların həyata keçirilməsinə

mane olurdu. Fətəli xan bu cür şəraitdə Rusiya dövləti ilə münasibətləri daha da genişləndirməyə çalışmış və Peterburqa dövrünün nüfuzlu diplomatı Mirzə Sadıq Məhəmmədvəlinin başçılığı ilə nümayəndə heyəti göndərmişdi. Cənubdan gələn təhlükə ilə əlaqədar II İrakli Azərbaycan xanlıqları ilə münasibətlərini yaxşılaşdırmağa cəhd edirdi. 1789-cu ilin yanvarında Şamxorçayın ətrafında - Gəncə xanlığının ərazisində Qubalı Fətəli xanla, Şəkili Məhəmməd Həsən xanın II İrakli ilə görüşü baş tutdu. Danışıqlar vaxtı tərəflər cəhd etdilər ki, Ağa Məhəmməd xandan əvvəl Qarabağa və Cənubi Azərbaycana bərabər yürüş etsinlər. Şimali - Şərqi Azərbaycandan savayı II İrakli bütöv Cənubi Qafqaza hakim olmaq niyyətində idi. Cənubi Azərbaycan isə Fətəli xanın hakimiyyətini altına keçəcəkdi. Bu görüşdə II İrakli Azərbaycan torpaqlarına daxil olan Şəmşədil sultanlığını (Şəmşədil sultanlığı, Borçalı və Qazax ilə bir yerdə 1736-cı ildə Nadir şah tərəfindən Kartli-Kaxetiya çarı I Teymuraza verilmişdir - Q.G.) Gəncə xanlığına geri qaytaracağına söz verdi. Ancaq həmin ildə Fətəli xanın Bakıda gözlənilmədən vəfat etməsi müttəfiqlərin planlarını alt-üst etdi [5, s. 50].

Cavad xan hakimiyyətə gəldikdən sonra, artıq 1795-ci ildə II İrakliyə xərac verməyi rədd etdi. Bu II İraklinin o zamana qədər Gəncədən əldə etdiyi çox böyük gəlirdən məhrum olması demək idi. O, Gəncənin möhkəmləndirilməsi, güc toplaması və abadlaşdırılması üçün önəmli işlər gördü. Təəssüfki, onun dövründə inşa edilmiş tikililərin sadəcə kiçik bir hissəsi bizim dövrümüzə qədər gəlib çatmışdır. Onun mədəniyyətin inkişafına böyük önəm verməsi, elm adamlarına himayədarlıq etməsi tarixi mənbələrdə xüsusi vurğulanır. Buna baxmayaraq, siyasət meydanında vəziyyətin gündən-günə ağırlaşması onun gücünü və diqqətini əsas olaraq xanlığın müdafiəsinə yönləndirməyə vadar edirdi. Məsələ orasındadır ki, Ağa Məhəmməd xan Qacar İranda 1794-cü ildə hakimiyyətə gəldikdən sonra uzun müddət sürmüş hərc-mərcliyə son qoyub bütün İranı mərkəzi hakimiyyətə tabe etdirməyə başlamışdı. Digər bir tərəfdən də öz ənənəvi işğalçılıq siyasətinə sadiq qalan Rusiya Qafqazı ələ keçirməyə cəhd edirdi. Cavad xan Qafqaza Gürgan tərəfdən köç etmiş Qacar elinin ən qədim qollarından biri olan və hələ Səfəvilər dövründən Gəncədə və Dərbənddə məskunlaşmış Ziyadoğlular nəslinin üzvü olaraq Ağa Məhəmməd xanın Təbrizdəki elçisi Süleyman xan Qacarın hüzuruna gedib hakim hökuməti dəstəklədiyini elan etmişdi. Həmin zaman Qacarların rusların Qafqazdakı işğalçılıq siyasəti qarşısında aciz qalması və rus ordusunun Gəncəyə hücumu Cavad xanın 1796-cı ildə qalanı ruslara təslim etməsinə səbəb olmuşdu [ 2, s. 4].

Buna baxmayaraq, imperatriçə II Yekaterinanın ölümündən sonra ruslar Qafqazda uzun müddət qala bilmədilər. Lakin, rus ordusunun başçısı general Zubov Gəncədə hakimiyyəti Cavad xanın əlindən alaraq gürcü çarı İrakliyə tapşırır. İrakli də İbrahimxəlil xanla və anası gürcü Baqrationi nəslindən olan şəkili Səlim xanla birlikdə Gəncəyə yollanaraq oranın valiliyini İraklinin adından Əli sultan Şəmsəddinluya vermək istəyirlər. Bu zaman Cavad xanla zövcəsi Şükufə xanım diplomatik yolla hakimiyyəti özlərində saxlamağa nail olurlar. Daha sonra Ağa Məhəmməd şah qüvvə toplayaraq ruslara meyl edən Qarabağ xanı İbrahimxəlili və başqa yerli hakimləri cəzalandırmaq məqsədilə Araz çayı üzərindən keçib Qarabağa daxil olur. İbrahimxəlil xan təhlükəni dəf etmək üçün onun yanına peşkəşlər göndərir. Amma bununla kifayətlənməyən Qacarlar Şuşa qalasını mühasirəyə alırlar. Bu zaman İbrahimxəlil xanla daim mübarizədə olan və ondan zərər görən Cavad xan İrəvan hakimi Məhəmməd xan Qacarla, Quba və Dərbənd hakimi Fətəli xanın oğlu Şeyxəli xanla və Çiləbördlü Məlik Məcnunla birlikdə Ağa Məhəmməd şahın qərargahına gəlib ona çoxlu hədiyyələr verir və öz itaətkarlığını elan edir. 1797-ci ildə Şuşanı aldıqdan sonra Ağa Məhəmməd şah sui-qəsd nəticəsində vəfat edir. Bu hadisə rusların Qafqazı fəth etmək işini daha da asanlaşdırır. Rusiyanın təzyiqindən yenicə qurtulan Cavad xan öz xanlığının mövqeyini gücləndirmək naminə Ağa Məhəmməd şahın yerinə taxta çıxmış Fəthəli şaha

hədiyyələr göndərib ona itaət etdiyini bildirir. Lakin bununla da o, qəddar düşmənin əlindən can qurtara bilmir [6].

*Nəticə*

Yarım əsrdən artıq müstəqil xanlıqlar halında yaşamış Azərbaycan dövlətləri öz müstəqilliklərini qorumaq naminə böyük mübarizə aparmışlar. Azərbaycan xanları içərisində vahid və qüdrətli Azərbaycan dövləti yaratmaq uğrunda Gəncə xanı Cavadxanla yanaşı Şəki xanı Hacı Çələbi xan, Urmiya xanı Fətəli xan Əfşar, Qarabağ xanı İbrahimxəlil xan, Quba xanı Fətəli xan kimi nüfuzlu dövlət xadimləri də olmuşdur... buna baxmayaraq nə yazıqlar ki, öz kiçik mənafelərinin əsirinə çevrilən və bir-biri ilə mübarizə aparan bəzi xanların öz aralarında razılığa gələ bilməməsi ucbatından Azərbaycan o dövr üçün vahid və qüdrətli dövlət halında birləşə bilmədi. Məmləkətimiz Qafqazın işğalına başlayan Rusiya imperiyasına qarşı aciz vəziyyətə düşdü... Şəraitin çətinliyinə baxmayaraq xanlıqlar dövrü ölkəmizin hərbi-siyasi tarixində əsas rol oynayan xanlıqlarımız da oldu, Vətənin azadlığı üçün qanlı savaşlarda hünər göstərən, şəhid düşən Cavad xan Ziyadoğlu kimi xanlarımız da!

ƏDƏBİYYAT

1. Azərbaycan Milli Elmlər Akademiyasi A.Bakixanov adina tarix İnstitutu. Azərbaycan tarixi XIII-XVIII əsrlər. VII cilddə - III cild. Bakı, Elm – 2007, s. 356.
2. Azərbaycan Milli Elmlər Akademiyası Gəncə Bölməsi Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu Gəncə hökmdarı Cavad xan və Ziyadoğlu-Qacar nəsli. Gəncə 2020. “Elm” nəşriyyatı, s. 255.
3. Elgün Tofiq oğlu Babazadə. Gəncə xanlığının tarixindən (rus dilindən tərcümə, 2-ci nəşr). Bakı, “Şərq-Qərb” Nəşriyyat evi, 2012, 428 səh.
4. Habil Həsənov. Azərbaycan tarixi (XVIII əsrin son rübü-XIX əsrin əvvəlləri. S.153.
5. Həmidova Ş. Gəncə xanlığının Kartli - Kaxetiya çarlığı ilə münasibətləri tarixindən (XVIII əsrin 80-90-cı illəri), Azərb. SSR EA Xəbərləri, tarix, fəlsəfə və hüquq seriyası, 1972, №2, s.100
6. Həmidova Ş. Qarabağ xanlığının Kartli-Kaxetiya çarlığı ilə münasibətləri tarixindən (XVIII əsrin 80-90-cı illəri), Azərb. SSR EA Xəbərləri, tarix, fəlsəfə və hüquq seriyası, 1969, № 2.

УДК 908

*Наргиз Айдын кызы Расулова*
*Гянджинский Государственный Университет,*
*Гянджинское Отделение НАНА*
*Илаха Ариф кызы Асадзаде, Нурана Зохраб кызы Ганбарова*
*Гянджинское Отделение НАНА*

ОБРАЗОВАНИЕ ГЯНДЖИНСКОГО ХАНСТВА И ЕГО ВЗАИМООТНОШЕНИЯ С СОСЕДНИМИ ХАНСТВАМИ

*РЕЗЮМЕ*

*Ключевые слова:* Гянджинское ханство, Зиядоглу, Джавад-хан, Картли-Кахети, Ираклий II, Карабахское ханство, Ибрагимхалил-хан, Кубинский Фатали-хан

На основе Гянджинского бейлербейства было образовано Гянджинское ханство. Этим бейлербейством с XVII века до 1804 года с небольшими перерывами управлял род Зиядоглу, происходивший из каджарского племени Зиядлы. Ханство было

основано Шахверди-ханом Зиядоглу, представителем местных потомков племени Каджаров.

Гянджа имела важное значение как с военно-политической, так и с экономической точки зрения, поскольку являлась важным центром восточной торговли. Особое внимание в исследовании уделяется периоду от основания Гянджинского ханства до прихода к власти Джавад-хана Зиядоглу, борьбе за независимость от влияния Карабахского ханства и Картли-Кахетинского царства, а также противостоянию русским и каджарским войскам.

С момента своего основания ханство становилось объектом нападений со стороны соседних ханств и феодальных владений. Поэтому в борьбе за Гянджинское ханство особую роль сыграли Панахали-хан Карабахский, его преемник Ибрагимхалил-хан, а также правители Картли-Кахетинского царства Теймураз и Ираклий II. Гянджинским ханам, оказывавшим сопротивление противнику, приходилось применять различные дипломатические и военные методы борьбы с более сильными силами.

UDC 908

*Nargiz Aydin Rasulova*
*Ganja State University,*
*Ganja Branch ANAS*
*Ilaha Arif Asadzadeh, Nurana Zohrab Ganbarova*
*Ganja Branch ANAS*

## THE ESTABLISHMENT OF THE GANJA KHANATE AND ITS RELATIONS WITH NEIGHBORING KHANATES

*SUMMARY*

*Keywords:* Ganja Khanate, Ziyadoglu, Javad Khan, Kartli-Kakheti, Irakli II, Karabakh Khanate, Ibrahimkhalil Khan, Fatali Khan of Quba

The Ganja Khanate was established on the basis of the Ganja Beylerbeylik. This Beylerbeylik was ruled, with short interruptions, from the 17th century until 1804 by the Ziyadoglu family, which originated from the Ziyadli branch of the Qajar tribe. The Khanate was founded by Shahverdi Khan Ziyadoglu, a representative of the local descendants of the Qajar tribe.

Ganja held significant military-political and economic importance, as it was an important center of Eastern trade. The study focuses on the period from the establishment of the Ganja Khanate to the rise of Javad Khan Ziyadoglu, the struggle for independence from the influence of the Karabakh Khanate and the Kartli-Kakheti Kingdom, as well as confrontations with Russian forces and the Qajars.

From the time of its establishment, the khanate became the target of attacks by neighboring khanates and feudal authorities. Therefore, Panahali Khan of Karabakh, his successor Ibrahimkhalil Khan, as well as the rulers of Kartli-Kakheti, Teimuraz and Irakli II, played significant roles in the struggle over the Ganja Khanate. By resisting their opponents, the Ganja Khans had to employ various diplomatic and military tactics against stronger enemies.

***Daxil oldu: 22.06.2026-cı il***